Ramil Soltanov

# CAMAAT NAMAZI

Bakı-2007

# Camaat namazı

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə o, doğru yolda olar, kimi azdırarsa onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

*"Ey iman gətirənlər! Allahdan lazımınca qorxun və ancaq məsəlman olduğunuz halda ölün!"*[1]

*"Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən, ondan da onun üçün zövcə (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadın (törədib yer üzünə) yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən (cürbəcür şeylər) istədiyiniz Allahdan qorxun və qohumluq əlaqələrini kəsməkdən (həzər edin)! Həqiqətən, Allah sizə Nəzarət edəndir!"*[2]

*"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin! (Əgər belə etsəniz) Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Onun elçisinə itaət etsə, böyük bir səadətə nail olar".*[3]

Artıq hər kəsin də bildiyi kimi İslamın dirəklərindən biri və kəlimeyi tövhiddən sonra ən mühümü namazdır. Namaz: lüğəti mənada dua deməkdir. Dində isə; məlum olan xüsusi kəlmələri ifadə etmək və hərəkətləri yerinə yetirməklə, təkbirlə başlayıb, təslimlə qurtaran, niyyət ilə olunan ibadətə deyilir.

### Namazın hökmü

Namazın İslamda yeri böyükdür. O, Allahın təkliyinə və Muhəmmədin ﷺ Onun qulu və elçisi olduğuna şəhadət gətirdikdən sonra yerinə yetirilməsi vacib olan ilk əməl və dinin dirəyidir. Bütün

---

[1] Ali-İmran, 102.
[2] ən-Nisa, 1.
[3] əl-Əhzab, 70-71.

peyğəmbərlər öz ümmətlərinə namaz qılmağı əmr etmişlər. Allah, namazı bütün ümmətlərə vacib buyurduğu kimi bizim ümmətə də vacib buyurmuşdur. Uca Allah buyurur: *"Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur"*.[4]

İbn Ömər (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "İslam beş əsas üzərində bina edilmişdir: Allahdan başqa ilahın olmaması və Muhəmmədin Onun elçisi olmasına şahidlik etmək, namaz qılmaq, zəkat vermək, həcc etmək və Ramazan orucunu tutmaq".[5]

**Namazın ibadətlər arasında yeri**

Muhəmmədə ﷺ ilk vəhyin gəlməsindən və ona peyğəmbərlik verilməsindən on il sonra Uca Allah namazı Peyğəmbərə ﷺ meracda olarkən arada heç bir vasitə olmadan əmr etmişdir. Bu müddətə qədər o, insanlara tək Allaha ibadət etməyi, ona şərik qoşmamağı əmr edirdi. Müsəlmanların qəlbində əqidə möhkəmləndikdən sonra Allah onlara gün ərzində beş vaxt namaz qılmağı vacib buyurdu. Uca Allahın Quranda namazı digər ibadətlərdən çox xatırlatması namazın əzəmətini bildirir. Bu ibadətə xas olan bəzi xüsusiyyətlər vardır ki, bunlar başqa ibadətlərdə yoxdur. Bunlardan; Uca Allah bu ibadətin yerinə yetirilməsini hər bir halda vacib etmişdir. Başqa ibadətlərdən fərqli olaraq namazı bütün insanlara; kişi və qadına, qul və azad olana, zəngin və kasıba, müsafir və səfərdə olmayana, xəstə və sağlama vacib buyurmuşdur. Həmçinin digər ibadətlərdən fərqli olaraq namazı Allah öz peyğəmbərlərinin dili ilə hər bir ümmətə əmr etmişdir. Uca Allah İbrahimin (a.s) dili ilə buyurur: *"Ey Rəbbim! Məni də, nəslimdən olanları da namaz qılan et!"*.[6] Uca Allah Musaya (a.s) buyuraraq deyir: *"Həqiqətən, Mən Allaham. Məndən başqa heç bir ilah yoxdur. Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl!"*.[7] Həmçinin Allah Muhəmməd peyğəmbərə ﷺ xitab edərək deyir: *"Ailənə namaz*

[4] əl-Beyyinə surəsi, 5 .

[5] Səhihu-l-Buxari 8, Səhih Muslim 113.

[6] İbrahim surəsi, 40

[7] Taha surəsi, 14

*qılmağı əmr et, özün də onu səbirlə yerinə yetir"*[8]. Bu mənada olan ayələr Quranda çoxdur.

## Camaat namazının şəriətdən olması

Uca Allah bir çox ibadətləri camaatla birlikdə yerinə yetirməyi müsəlmanlara əmr etmişdir. Bu ibadətlərdən biri də namazdır. Camaat namazı ibadətlərin ən fəzilətlilərindən biridir. Uca Allah bu ümmətə müəyyən vaxtlarda camaat namazı qılmaq üçün bir yerə toplaşmağı buyurmuşdur. Bunlardan bəzisinə hər gün, bəzisinə həftədə bir dəfə, bəzisinə ildə bir dəfə, bəzisinə isə ancaq səbəb olduqda yığışılır. Namazın camaatla qılınmasında bir çox faydalar vardır. Müsəlmanlar camaat namazına durduqda dövlətli və kasıb, ağ və qara eyni olur. Hamı Allahın qabağında baş əyir. Camaatın bu şəkildə bir yerə toplaşaraq namaz qılmalarının faydalarından; müsəlmanlar arasında sevgi, qardaşlıq, qəlblərin biri-birinə bağlanması və s. göstərmək olar. Müsəlmanlar bir yerə toplaşdıqda bir-biriləri ilə tanış olur, dərdlərinə şərik çıxır, bir-birilərinə köməklik göstərirlər.

Camaat namazına gəlməyən şəxsin isə iki halı vardır.
Birinci hal: Üzrlü səbəbdən camaat namazını tərk edir və həmin şəxsə niyyətinə görə savab yazılır.
İkinci hal: Üzrsüz səbəbdən camaat namazını tərk edir və həmin şəxs böyük savabdan məhrum olmaqla yanaşı həm də böyük günah qazanır.

## Camaat namazının tarixi

Uca Allah namazı camaatla qılmağa Məkkədə icazə versə də onu vacib buyurmamışdır. Peyğəmbər ﷺ meracdan dönəndən sonra Cəbrail (a.s) gələrək Peyğəmbərlə ﷺ birlikdə namaz qılmışdır. Bu hadisədən sonra Peyğəmbər ﷺ namazları camaatla qılmağa başlamışdır. Mədinəyə gəldikdən sonra isə Peyğəmbər ﷺ camaat namazını vacib buyurmuşdur.

[8] Taha surəsi, 132

**Camaat namazının qılındığı yer**

Camaat namazını namaz qılmaq üçün yararlı olan hər bir yerdə qılmaq olar. Əsasən isə camaat namazları məsciddə qılınır. Məscid namaz üçün ayrılan daimi yerdir. Məscidin İslamda böyük əhəmiyyəti və fəzilətləri vardır. İbadətlərin bir çoxunun məsciddə edilməsi onun nə dərəcədə şərəfli yer olmasına dəlalət edir. İbadət tək Allaha olunduğu kimi məscid də tək Allaha məxsusdur. Uca Allahın Quranda məscid sözünü on səkkiz dəfə zikr etməsi onun böyük fəzilətindən xəbər verir. Uca Allah məscidin əzəmətini bildirmək üçün bir çox yerlərdə məscidin yalnız Ona məxsus olduğunu bəyan edir. Oraya gələnlərə zərər törətmək və onların qarşısını almaq ən böyük zülmdür. Uca Allah buyurur: *"Allahın məscidlərində Onun adının zikr edilməsinə maneçilik törədənlərdən və onların viranə qalmasına çalışanlardan daha zalım kim ola bilər? Əslində onlar oraya qorxa-qorxa daxil olmalı idilər. Onlar üçün dünyada rüsvayçılıq, axirətdə isə böyük bir əzab vardır"*.[9]

Əbu Hüreyra (r.a) Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: "Allahın ən çox sevdiyi yer məscidlər, bəyənmədiyi yer isə bazarlardır".[10]

İslamda ən fəzilətli məscid, Məscidil-haram sonra Peyğəmbərin ﷺ məscidi, sonra isə Məscidil-aqsadır. Məscidil-haramda qılınan bir namaz yüz min, Peyğəmbərin ﷺ məscidində qılınan namaz min, Məscidil-aqsada isə beş yüz savabdır. Bu üç məscidi ziyarət niyyəti ilə yola çıxmağa Peyğəmbər ﷺ icazə vermişdir. Bu məscidlərdən sonra ən fəzilətlisi Quba məscididir. Quba məscidi İslam dini gəldikdən sonra bina edilən ilk məsciddir.

Məscid tikməyin böyük fəziləti vardır. Osman (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "Kim Allah üçün bir məscid tikərsə, Allah da onun üçün Cənnətdə bir ev tikər".[11] Yəni kimin niyyəti xalis olub Allah üçün məscid tikdirərsə, Uca Allah bunun əvəzində həmin şəxs üçün Cənnətdə ev tikər.

---

[9] əl-Bəqərə surəsi, 114 .
[10] Səhih Muslim, 671
[11] Səhih Muslim, 1190

## Camaat namazının fəziləti

Camaat namazını qılmaq savabın çoxalmasına, dərəcələrin qalxmasına səbəbdir. Camaat namazının savabı tək qılınan namazdan iyirmi beş, yaxud da iyirmi yeddi dəfə çoxdur. Həmçinin camaat namazları qılındığı yerinə, ədəblərinə, kamilliyinə və başqa səbəblərə görə dərəcə etibarı ilə biri-birindən fərqlənir. Abdullah ibn Ömər (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "Camaatla qılınan namaz, tək qılınan namazdan iyirmi yeddi dərəcə (artıq) əfzəldir".[12] Osman (r.a) rəvayət edir ki, Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Kim namaz üçün mükəmməl şəkildə dəstəmaz alar, sonra isə fərz namazını qılmaq üçün (məscidə) gedib, onu camaatla birgə qılarsa Allah onun günahlarını bağışlayar".[13]

Əbu Hüreyra (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "Kişinin camaatla qıldığı namazın savabı evində və bazarda tək qıldığı namazın savabından iyirmi beş dəfə artıqdır. Belə ki o, mükəmməl şəkildə dəstəmaz alıb yalnız camaatla namaz qılmaq üçün məscidə getdiyi zaman, atdığı hər addımına görə bir savabı artar və bir günahı silinər. Camaatla namaz qılarsa, hətta o namazı qılmaq üçün gözlədiyi müddətdə də mələklər onun üçün dua edib deyərlər: "Allahım, ona xeyir-dua ver! Allahım onu bağışla! Allahım, ona rəhm et!" Camaat namazını gözlədiyi müddətdə isə camaatla namaz qılan kimi hesab olunar".[14]

Camaat namazına getməyin böyük savabı vardır. Əbu Hüreyra (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim evində dəstəmaz alıb, vacib buyurulan namazı qılmaq məqsədi ilə məscidlərin birinə gedərsə atdığı addımlardan hər biri onun bir günahını silər digəri isə savabını artırar".[15]

---

[12] Səhihu-l-Buxari 645, Səhih Muslim 1475
[13] Səhih Muslim 548
[14] Səhihu-l -Buxari 647, Səhih Muslim 1476
[15] Səhih Muslim 666

## Camaat namazının faydası

Camaat namazının bir çox faydaları var. Bunlardan:

– camaat namazını qılan şəxs tək qılandan daha çox savab qazanır.
– İslamın əzəmətli bir şüarı olan namaz nümayiş etdirilmiş olur.
– müsəlmanların birliyi görünür.
– məscidə gələn müsəlmanlar bir-biri ilə tanış olub din qardaşı olurlar.
– müsəlmanlar qardaşında xəta gördükdə onu düzəldirlər.
– müsəlman qardaşının halından: köməyə ehtiyacı olanı, xəstə olanı və digər şeylər barədə xəbər tuturlar.
– hamı Allah dərgahında eyni səviyyədə olduğunu hiss edir.
– başqa müsəlmanları gümrah görəndə ora gələnin gümrahlığı artır.
– məscidə namaza getdikdə hər atdığı addıma görə bir savab yazılır və bir günahı silinir.

## Camaat namazı və məscidin ədəbləri

Camaat namazına gedən şəxs aşağıdakı əbədlərə riayət etməlidir.

– məscidə yalnız ixlasla, Allah xətrinə getmək.
– təmiz və gözəl paltar geymək.
– pis iy gəldikdə məscidə getməmək .
– məscidə asta-asta təmkinlə getmək.
– gözü haram şeylərdən çəkmək.
– məscidə namazdan qabaq getmək.
– məscidə girdikdə sağ ayaqla girmək və sol ayaqla çıxmaq.
– məscidə getdikdə sünnədə varid olan duaları oxumaq.
– məscidə girdikdə namaz qılmayana qədər oturmamaq.
– qabaq səflərdə oturmağa can atmaq.
– məsciddə dünya söhbətləri etməmək.
– məscidə gedərkən təharət alıb getmək sünnədir.
– məscidə girdikdə ətrafdakılara alçaq səslə salam vermək.
– qibləyə tərəf oturmaq.
– məsciddə uca səslə oxuyub və ya danışmamaq.
– barmaqları şaqqıldatmamaq.

– dirəklərin arasında namaz qılmamaq (yer olmadıqda isə qılmaq olar).
– insanları aralayıb qabağa keçməyə cəhd etməmək.
– namaz qılanların önündən keçməmək.
– bir yeri xüsusiləşdirib daima orada namaz qılmamaq.
– oturan şəxsi qaldırıb yerində oturmamaq.
– xütbə zamanı danışmamaq.
– məscidin təmiz olmasına təşəbbüs göstərmək.

**Camaat namazı kimlərə vacibdir**

1. Yalnız kişilərə camaat namazı qılmaq vacibdir. Qadına və uşağa camaat namazı vacib deyildir.
2. Azad insana. Qul olan insanın camaat namazına getməyi ağası icazə vermədikdə vacib deyildir.
3. Yetkinlik yaşına çatana.
4. Camaat namazına gəlməmək üçün hər hansı bir üzrü olmayana.

**Azan verildikdən sonra məsciddən çıxmağın hökmü**

Azan verildikdən sonra məsciddən çıxmaq haramdır. Əbu Hüreyra (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ bizə belə əmr etmişdir: "Məsciddə olduğumuz zaman azan verilərsə namaz qılmayana qədər sizlərdən heç biri oranı tərk etməsin".[16]

Əbu Hüreyra (r.a) müəzzin azanı oxuduqdan sonra bir nəfərin məsciddən çıxdığını gördükdə dedi: "Bax bu, artıq Əbul-Qasimə asi oldu".[17]

Dəstəmaz almaq üçün və başqa üzrlü səbəb olduqda məsciddən çıxmaq olar. Əks hallarda isə azan oxunduqdan sonra məscidi tərk etmək haramdır.

---

[16] Musnədu Əhməd 2/537
[17] Səhih Muslim 655

## Neçə nəfərlə qılınan namaz camaat namazı sayılır

Ən azı iki nəfərin iştirakı ilə qılınan namaz artıq camaat namazı sayılır. Əl-Vəzir ibn Hubeyra əl-İfsah kitabında demişdir: "(Alimlər) ittifaq etmişlər ki, cümədən başqa qılınan fərz namazının camaat namazı sayılması üçün ən azı iki nəfər; imam və onun sağında durub onu təqib edən olmalıdır".[18] İmam ibn Qudəmə deyir: "(Namaz qılanların sayı) iki və daha artıq olarsa, camaat namazı sayılır. Bu məsələdə (alimlər arasında) ixtilaf yoxdur".[19]

Camaat namazı qılan iki şəxsdən biri istər kişi istərsə də qadın olsun yenə də camaat namazı sayılır. Hətta uşaq həddi buluğa çatmasa belə camaatla namaz qıla və lazım gəldikdə imam dayana bilər. Amr ibn Sələmə öz qəbiləsində Quranı ən çox bildiyi üçün imam o dayanırdı. O zaman onun altı, yaxud da yeddi yaşı var idi.

## Camaat namazına yetişmək

Gecikən şəxs camaat namazının axırıncı rükətinin rükusuna çatarsa onda o şəxs camaat namazına çatmış sayılır. Camaat namazına gecikən şəxs təkbir edərək namaza daxil olur və rükuya gedərək camaatla birlikdə davam edir  və bununla da camaat namazının savabı kimi savab qazanır. Axırıncı rükətin rukusundan sonra camaata qoşulan şəxs isə ümumən namaza çatmış olsa da camaat namazının savabını qazanmır. Onun qıldığı namaz da tək adamın qıldığı namaz sayılır. Yalnız imam rükudan qalxmamış başını əyib əllərini dizlərinə qoyan şəxs həmən rükuya çatmış hesab olunur. Əbu Hüreyra (r.a) Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Kim çatıb namazın bir rükətini imamla birlikdə qılarsa (camaat) namazına çatmış sayılır"[20] İbn Ömər (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "Kim cümə, yaxud başqa bir namazın bir rükətinə çatarsa, (camaat) namazına çatmışdır".[21]

---

[18] əl-İfsah 1/155

[19] əl-Muğni 2/7

[20] Səhihu-l-Buxari 1/145, Səhih Muslim 2/423

[21] Sunənu-n- Nəsəi 3/112, Sunənu ibn Məcah 1/202

Üzrlü səbəbdən camaat namazına gecikən şəxs isə niyyətinə görə camaat namazının savabını qazanmış olur. Əbu Hüreyra (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "Kim dəstəmazı gözəl şəkildə alıb sonra məscidə gedərsə və görsə ki, artıq camaat namazı qılıb, Allah təala ona namazda iştirak edənlərin savabı qədər savab yazar və onların savabından da heç bir şey azalmaz".[22]

Namaza gecikən şəxs yetişdiyi yerdən camaata qoşulub namazına davam etməli, imam ikinci salamı verdikdən sonra isə qalxıb öz namazını tamamlamalıdır.

**Vacib namazları camaatla qılmağın hökmü**

Əgər namaz vacib namazlardan biridirsə azanı eşidən adam üçün camaat namazı da vacib olur. Müsəlman kişi heç bir üzrlü səbəb olmadığı halda camaat namazını buraxarsa günah qazanır. Camaat namazının vacib olması Quran ayələrində və hədislərdə öz əksini tapmışdır. Uca Allah buyurur: *"Sən (səhabələrinin) arasında olub onlara namaz qıldırdığın zaman onların bir dəstəsi səninlə birlikdə namaza dursun, silahlarını da (özləri ilə) götürsünlər. Bunlar səcdə etdikləri zaman (birinci rükəti tamamlayanadək o biri dəstə) arxanızda olsun. (Sonra) namazını qılmamış digər dəstə gəlib səninlə birlikdə namaz qılsın, ehtiyatlarını (tutsunlar) və silahlarını da (özləri ilə) götürsünlər. Kafirlər istərdilər ki, siz silahlarınızdan və əşyalarınızdan xəbərsiz olasınız və onlar da sizin üzərinizə bircə dəfə hücum etsinlər (bir həmlədə sizi məğlub etsinlər). Əgər siz yağışdan əziyyət çəksəniz və ya xəstə olsanız silahlarınızı yerə qoymaq sizə günah deyildir, lakin ehtiyatınızı əldən verməyin. Şübhəsiz ki, Allah kafirlər üçün alçaldıcı bir əzab hazırlamışdır."*[23]

Bu ayə açıq aydın camaat namazının vacib olmasına dəlalət edir. Uca Allah cihadda belə camaat namazını qılmağı əmr edirsə deməli adi hallarda qılmaq daha da vacibdir.

Əbu Hüreyra (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Canım əlində olana and olsun ki, istərdim odun yığsınlar, sonra namaz üçün

[22] Sunənu Əbu Davud 564, Albani səhihləşdirmişdir 855

[23] ən-Nisa surəsi, 102.

azan versinlər və kiməsə imam olmağı həvalə edib namaza gəlməyən kişilərin evlərini yandırım”.[24]

Hafiz ibn Həcər bu hədis barədə deyir: “Bu hədisin zahiri camaat namazının vacibliyinə dəlalət edir. Əgər camaat namazı sünnə olsaydı onu tərk edənləri evlərinin yandırılması ilə qorxutmazdı”.[25]

Əbu Hüreyra (r.a) rəvayət edir ki, Peyğəmbərin ﷺ yanına kor bir kişi gəlib: “Məni məscidə aparan bir kimsə yoxdur”– deyərək namazı evində qılması üçün izn istədi. Peyğəmbər ﷺ ona evində namaz qılmağa izn verdi. Dönüb getdikdə isə onu çağırıb dedi: “Azanı eşidirsənmi?” O: “Bəli”– deyə cavab verdi. Peyğəmbər ﷺ dedi: “Namaza gəl”.[26] Hədisdən də göründüyü kimi Peyğəmbər ﷺ gözləri kor olan və özünü də camaat namazını qılmaq üçün məscidə aparmağa bir kimsəsinin olmadığı adama məsciddə qılınan camaat namazını tərk etməyə icazə vermədi. Elə isə sağlam və heç bir üzrü olmayan kimsələrin camaat namazını tərk etmələrinə heç nə ilə bəraət qazandırmaq olmaz.

## Camaatla qılınan namazlar

*** Fəcr namazı**.

Fəcr: dan yerinin ağarmasına deyilir. Bu namaza həmçinin sübh namazı da deyilir. İki rükətdən ibarət olub səslə qılınan bu namaz gün ərzində beş vaxt qılınması vacib buyurulan namazlardan biridir. Fəcr namazını başqa namazlara nisbətən uzun qılmaq sünnədir. Bu namazdan əvvəl daima qılınan iki rükət sünnə namazı vardır.

Fəcr namazının vaxtı dan yerinin ağarmasından günəş çıxanadəkdir.

*** Zöhr namazı**.

Zöhr: günorta vaxtına deyilir. Gün ərzində vacib buyurulan beş namazdan biridir. Bu namaz səssiz qılınan dörd rükətli namazdır.

[24] Səhihu-l-Buxari 644, Səhih Muslim 651
[25] Fəthul-Bəri, 1/158
[26] Səhih Muslim, 653

Zöhr namazından əvvəl iki və ya dörd rükət, sonra isə iki rükət sünnə namazı qılmaq olar.

Zöhr namazının vaxtı günəş zeniti keçdikdən sonra hər bir şeyin hündürlüyü ilə kölgələrinin uzunluğunun bərabərləşdiyi anadəkdir (əsr namazınadək).

*** Əsr namazı**

Əsr: axşam çağına deyilir. Bu namaza həmçinin orta namaz da deyilir. Gün ərzində vacib buyurulan beş namazdan biridir. Bu namaz dörd rükətdən ibarət səssiz qılınan namazdır.

Əsr namazının vaxtı əşyaların hündürlüyü ilə kölgələrinin uzunluğunun bərabərləşdiyi andan əşyaların kölgələrinin uzunluğunun onların hündürlüyündən iki dəfə artıq olanadək (caiz vaxtı) və ya gün batanadəkdir (zəruri halda).

**Qeyd:** Zöhr və əsr namazlarının vaxtında qeyd olunan kölgələrin uzunluğu məsələsi yalnız yer kürəsinin ekvator xətti üzərində yerləşən ölkələr üçün keçərlidir.

*** Məğrib namazı.**

Məğrib: günəşin batdığı vaxta və yerə deyilir. Gün ərzində qılınan beş namazdan biridir. Məğrib namazı üç rükətli, ilk iki rükəti səslə, sonuncu rükəti isə səssiz qılınan namazdır. Məğrib namazından sonra iki rükət sünnə namazı qılınır.

Məğrib namazının vaxtı günəş batan andan qaranlıq çöküb, üfüqdə olan qızartı itənə qədərdir.

*** İşa namazı.**

İşa: axşam üstü mənasını daşıyır. Gün ərzində vacib buyurulan beş namazdan biridir. İşa namazı dörd rükətli, ilk iki rükəti səslə, axır iki rükəti isə səssiz qılınır. Bu namazdan sonra iki rükət sünnə namazı vardır.

İşa namazının vaxtı qaranlıq çökəndən gecə yarısınadəkdir. Gecə yarısı isə gün batan andan dan yeri sökülənədək olan vaxtın yarısıdır.

Qeyd etdiyimiz bu beş namazın vaxtlarına dair Peyğəmbərdən ﷺ bir çox hədislər varid olmuşdur.

Cabir ibn Abdullah (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ günəş zeniti keçdikdə (şiddətli istidə) zöhrü, günəş saf olduqda (hələ saralmamış) əsri, günəş batdıqda da məğribi qılardı. İşanı isə, səhabələrinin toplandığını gördükdə tez (vaxtı girəndə), yubandıqlarını gördükdə isə gec qılardı. Sübhü isə Peyğəmbər ﷺ qaranlıqda qılardı.[27]

Əbul-Minfəl rəvayət edir ki, Mən və atam, Əbu Bərzətə əl-Əsləminin yanına getdik. Atam ona: "Danış, görək Peyğəmbər ﷺ namazları necə qılardı?" - deyə müraciət etdikdə, o dedi: "Peyğəmbər ﷺ əl-Hicri (zöhr namazı) – sizin saydığınız ilk namazı – günəş zeniti keçdikdə qılardı. Əsri qıldıqdan sonra bizlərdən biri şəhərin kənarında yerləşən evinə qayıdana qədər günəş hələ saralmazdı. Məğrib haqqında dediyi yadımdan çıxıbdır. əl-Atəmətu adlandırdığınız işanı gecikdirməyi xoşlayar, ondan qabaq yatmağı və ondan sonra danışmağı isə bəyənməzdi. Sübh namazını isə hər kəsin yanındakını seçə bildiyi vaxtda ( hava bir az işıqlandıqda) bitirərdi. Bu namazda o, altmış ayədən yüz ayəyə qədər oxuyardı".[28]

*** Cümə namazı**.

Cümə: hicri təqvimində həftənin yeddinci gününə, miladi təqvimində isə həftənin beşinci gününə deyilir. Cümə namazı həftədə bir dəfə cümə günü camaatla birgə qılınan namazdır. Cümə namazı zöhr namazından fərqli, müstəqil yerinə yetirilən bir ibadətdir. Cümə namazı ilə zöhr namazının vaxtı eyni olsa da, uca səslə qılınması, rükətlərinin sayının iki olması, xütbənin oxunması və başqa şərtlərinə görə bir-birindən fərqlənirlər. Bu namazın hökmü vacibdir. Onun vacibliyinə Quran, sünnə və alimlərin ittifaqı dəlalət edir. Cümə namazından sonra məsciddə dörd rükət, evdə isə iki rükət sünnə namazı qılmaq olar.

---

[27] Səhihu-l-Buxari 560, Səhih Muslim 1458

[28] Səhihu-l-Buxari 547, Səhih Muslim 1403

*** Bayram namazı.**

İslam dinində iki bayram mövcuddur ki, bunlar da Fitr (oruc) və Ədha (qurban) bayramıdır. Bu iki bayramdan savayı olan bütün bayramlar isə dində olmayan adət-ənənədən hesab olunurlar. Bu bayramları Uca Allah Quranda xüsusən qeyd etmişdir. Peyğəmbər ﷺ ilk bayram namazını – Ramazan bayramını – hicrətin ikinci ilində Mədinədə qılmışdır.

**Fitr** - Orucu dayandırma, nəhayət vermə deməkdir. Bu bayram hər il Şəvval ayının 1-də olur.

**Ədha** - Qurban vermək deməkdir. Bu bayram Zil-hiccə ayının on günü başa vurmağına görədir və Zil-hiccə ayının 10-u bayram edilir.

Hər iki bayram namazı, iki rükət səslə qılınan namaz və iki xütbədən ibarətdir. Bayram namazından əvvəl nə azan nə də iqamə oxunur. Bayram namazının xütbəsi namazdan sonra verilir. Bu namazdan nə əvvəl nə də sonra sünnə namazı qılınır. Qeyd etmək lazımdır ki, namazı bir nəfər xütbəni isə ayrı şəxs verə bilər.

Abdullah ibn Ömər (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ Əbu Bəkr (r.a) və Ömər (r.a) bayram namazlarını xütbədən əvvəl qılardılar.[29]

Fitr namazını qılmazdan öncə bir şey yemək, xüsusi ilə də tək sayda xurma yemək sünnədir. Peyğəmbər ﷺ fitr namazına çıxmazdan öncə tək sayda xurma yeyərdi.[30] Ədha bayramı günü isə namazdan sonra yeyərdi. Bureydə (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ fitr bayramı günü yeməyincəyə qədər namaza çıxmazdı. Ədha günü isə namazdan sonra yeyərdi.[31]

Bayram namazına gedərkən gözəl və təmiz paltar geyinmək, tez və piyada getmək, geri döndükdə isə ayrı yolla qayıtmaq sünnədir.

Bayram namazı qılmaq hər bir həddi-buluğa çatmış, ağılı yerində olan müsəlmana vacibdir. Hətta Peyğəmbər ﷺ heyzli olan qadınlara belə bayram namazına gəlmələrini, lakin camaatın namaz qıldığı yerdən kənarda durmalarını əmr etmişdir.

---

29 Səhihu-l-Buxari 963, Səhih Muslim 2041

30 Səhihu-l-Buxari 953

31 Sunənu-t-Tirmizi 542, Sunənu İbn Məcah 1756

Qurban bayramında qurbanlıq heyvanlar namazdan sonra kəsilməlidir. Namazdan əvvəl kəsilən heyvan qurban yox, sədəqə olur.

“Allahu əkbər, Allahu əkbər, lə iləhə illallah, Allahu əkbər, Allahu əkbər və lilləhi-l-həmd”. Bu duanı hər kəs bayram günü xorla deməmək şərti ilə təkrarlanmalıdır.

Bayram namazının vaxtı günəş üfüqdən bir nizə hündürlüyündə təxminən bir metr qalxdıqdan sonra, başqa sözlə ifadə etsək təqribən günəş çıxdıqdan on beş dəqiqə sonra günəş səmanın ortasına (zenitə) yüksəlməsindən bir az əvvələdəkdir (təqribən on dəqiqə qabaq).

Bayram namazının qılınması: birinci rükətdə ehram təkbirini edib, namaza giriş (istiftah) duasını oxuduqdan sonra altı dəfə əlləri çiyinlər səviyyəsində qaldıraraq təkbir etmək, sonra isə digər fərz namazlarında olduğu kimi həmin rükəti tamamlamaq. İkinci rükətə qalxdıqdan sonra isə beş dəfə əlləri çiyinlər səviyyəsinə qaldıraraq təkbir etmək və həmin qaydada o rükəti təşəhhüd və salamlarla tamamlamaq lazımdır.

Bayram namazını camaatla qılmayan şəxsin bu namazın qəzasını qılması sünnəyə ziddir. Çünki Peyğəmbərdən ﷺ bayram namazının qəzasını qılmaq varid olmamışdır.

*** Kusuf namazı**

Kusuf günəşin tutulmasına, xusuf isə ayın tutulmasına deyilir. İslam alimlərinin yekdil rəyinə görə kusuf və xusuf günəş və ayın tam yaxud qismən tutulmasına deyilir. Hər ikisinin tutulmasını həm kusuf, həm də xusuf adlandırmaq olar.

Kusuf namazı günəş və ayın tam yaxud qismən tutulduğu zaman iki rükətli dörd rüku və dörd səcdədən ibarət səslə qılınan namazdır. Bu namazlardan sonra bir xütbə vermək caizdir. Bu namazlardan nə sonra nə də əvvəl sünnə namazı qılınmır.

Aişə (r.a) rəvayət edir ki, Peyğəmbərin ﷺ zamanında günəş tutuldu və o, camaatı namaza çağırmaq üçün bir nəfər göndərdi. Onlar

namaz qılmaq üçün toplandıqdan sonra Peyğəmbər ﷺ təkbir edib dörd rüku və dörd səcdədən ibarət iki rükət namaz qıldı.[32]

Günəş və ayın tutulması heç bir şəxsin ölümünə və ya doğulmasına görə deyildir. Uca Allah qullarını qorxutmaq üçün bunu belə edir.

Əbu Məsud əl-Bədri (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "Həqiqətən, günəş və ay Allahın yaratdığı rəmzləridir ki, Allah bununla (günəş və ay tutulması ilə) qullarını qorxudur. Günəş və ay heç kəsin ölümünə və ya doğulduğuna görə tutulmur. Onların tutulduğunu gördüyünüz zaman namaz qılın və bu hal sona çatana qədər  Allaha dua edin".[33]

Aişə (r.a) rəvayət edir ki, Peyğəmbərin ﷺ zamanında günəş tutuldu və o, camaata namaz qıldırdı. Namaz əsnasında qiyam və rükunu uzatdı, sonra rükudan qalxdı və əvvəlkinə nisbətən az qiyamda durdu, sonra rüku etdi və əvvəlkinə nisbətən az qiyamda durdu, sonra rüku etdi və əvvəlkinə nisbətən az rükuda qaldı, (rükudan qalxandan) sonra səcdə etdi və onu da uzatdı. İkinci rükəti də bu qaydada qılıb, artıq günəşin üzü açıldığı zaman namazı bitirdi. Sonra Allaha həmd-səna edib dedi: "Həqiqətən, günəş və ay Allahın yaratdığı rəmzləridir. Onlar heç kəsin ölümünə və ya doğulduğuna görə tutulmur. Onların tutulduğunu gördüyünüz zaman Allaha dua edin, təkbir gətirin, namaz qılın və sədəqə verin. Ey Muhəmməd ümməti! Allaha and olsun ki, heç biriniz Allahın zina etdiyi quluna (kişi və ya qadın) qarşı qeyrətli olduğu kimi (qeyrətli) ola bilməz. Ey Muhəmməd Ümməti! Mənim bildiyimi bilsəniz, az gülüb çox ağlayardınız".[34]

Əbu Musa əl-Əşari (r.a) rəvayət edir ki, Peyğəmbərin ﷺ zamanında günəş tutuldu. O, qiyamətin qopduğunu zənn edib məscidə gəldi və namaz qıldı. Namaz əsnasında qiyamı, rükunu və səcdəni uzatdı. Mən onun bu cür namaz qılmağını görməmişdim. Namaz qıldıqdan sonra dedi: "Allahın göndərdiyi bu rəmzlər, kiminsə ölümünə və doğulmasına görə deyildir, lakin Allah bununla qullarını qorxudur.

[32] Səhih Muslim 2089.

[33] Səhihu-l-Buxari 1041, Səhih Muslim 2111

[34] Səhihu-l-Buxari 1044, Səhih Muslim 2086

Belə olduğunu gördüyünüz zaman Allaha zikr və dua etməyə, ondan bağışlanma diləməyə tələsin!”[35]

Bu namazların hər rükətində olan birinci rüku rukn, ikincisi isə sünnədir. Deməli hər rukətdə olan birinci rükuya çatan şəxs o rükətə çatmış, ikinci rükuya çatan isə o rükətə çatmamış hesab olunur. Bu namaza gecikən şəxs o namazı qəza eləmir.

Kusuf namazının vaxtı günəş və ya ay tutulan andan açılanadəkdir. Bu namazları qılmaq vacibdir. (fardu-l-kifayədir[36]) [37]

*** İstisqa namazı**

Camaatla qılınan sünnə namazlarından biri də istisqa namazıdır. İstisqa: dua edib Allahdan yağış yağdırmasını istəmək deməkdir. İstisqa namazı, xüsusən quraqlıq olduqda, ümumən isə istənilən vaxt dua edib Allahdan yağış yağdırmasını istədikdə iki rükətli səslə qılınan sünnə namazıdır. Bu namazdan sonra və ya əvvəl bir xütbə vermək sünnədir. Bu namazlardan nə sonra nə də əvvəl sünnə namazı qılınmır.

Abdullah ibn Zeyd ibn Asim əl-Mazini (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ yağışın nazil olmasını Allahdan istəmək üçün əbasını tərsinə çevirib (geyindi), qibləyə tərəf döndü və dua etdi. Sonra iki rükət səslə namaz qıldı.[38]

Ənəs ibn Malik (r.a) rəvayət edir ki, cümə günü bir kişi məscidə Ömərin evinin istiqamətində olan qapıdan daxil oldu və ayaq üstə xütbə verən Peyğəmbərə ﷺ yaxınlaşıb dedi: “Ey Allahın elçisi! Mal-qara həlak olur, səfərlər də dayandırılıb (quraqlıq olduğu üçün dəvələrlə səfərə çıxmaq olmur.) Allahın bizə yağış nazil etməsi üçün dua et! Peyğəmbər ﷺ əllərini qaldırıb üç dəfə “Allahummə-sqinə” (başqa rəvayətdə Allahummə əğisnə) Allahım, bizə yağış endir! -

---

[35] Səhihu-l-Buxari 1059, Səhih Muslim 2114

[36] Bir və ya daha çox müsəlmanın yerinə yetirilməsi ilə digərləri üçün vacib olmayan əmələ fardu-l-kifayə deyilir.

[37] Təmamu-l-Minnə 261-262, əş-Şəhru-l-Mumti alə zadu-l-Mustəqnəi 5. 240; 4-8

[38] Səhihu-l-Buxari1024; Səhih Müslim 2086

deyə dua etdi"[39] Ənəs (r.a) deyir ki, Allaha and olsun ki, göydə nəinki bulud, heç bulud parçası da yox idi. Bizimlə Səlin (Mədinə şəhərində dağ adıdır) arasında nə bir ev nə də bir koma var idi. Birdən Səlin arasından qalxana bənzər bir bulud göründü. Bulud gəlib səmanın ortasına çatdıqda yayıldı və yağış yağdı. Allaha and olsun ki, bir həftə gün üzü görmədik. Cümə günü bir kişi yenə məscidə Ömərin (r.a) evinin istiqamətindən olan qapıdan daxil oldu və ayaq üstə xütbə verən Peyğəmbərə ﷺ yaxınlaşıb dedi: "Ey Allahın elçisi! Mal qara həlak olur, səfərlərə dayandırılıb (yolları su basdığı üçün dəvələrlə səfərə çıxmaq olmur). Allaha, yağışı dayandırmaq üçün dua et!" Peyğəmbər ﷺ əllərini qaldırıb dua etdi. Bu duadan sonra buludlar çəkildi və biz qızmar günəşin altında gəzişməyə başladıq. Şureyk deyir ki, mən Ənəsdən (r.a): "O (ikinci dəfə gələn kişi) həmin kişi (birinci dəfə gələn) idi?"- deyə soruşduqda o: "Bilmirəm"- deyə cavab verdi.[40]

İstisqa namazının qılınması: imam birinci rükətdə ihram təkbirindən və namaza giriş (istiftah) duasını oxuduqdan sonra altı dəfə təkbir etməli və adi sünnə namazının qılındığı qaydada həmin rükəti tamamlamalıdır. İkinci rükətə qalxdıqdan sonra isə beş dəfə təkbir etməli və adi sünnə namazının qılındığı qaydada həmin rükəti tamamlamalıdır. Birinci rükətdə "əl-Əla" ikinci rukətdə isə "əl-Ğaşiyə" surələrini oxumaq sünnədir. Camaat da imama tabe olaraq bu hərəkətləri yerinə yetirməlidirlər. İmam Allaha həmd səna etməklə, Ondan bağışlanma diləməklə xütbəni başlamalı, sonra möminləri Cənnətlə müjdələməli, Cəhənnəm əzabından çəkindirməli, günaha görə tövbə etmələrini biri-birinə nifrət etməməklərini və s. lazımı nəsihətləri etməlidir. Sonra qibləyə tərəf çönüb ridasını və yaxud əynindəki ridaya oxşar paltarı çıxarıb tərsinə, sağı sol, solu da sağ tərəfinə geyinmək sünnədir. Daha sonra əllərini göyə tərəf qaldırıb Allahdan yağış yağdırması üçün dua etməlidir.

[39] Səhihu-l-Buxari1014

[40] Səhihu-l-Buxari1013, Səhih Muslim 2075

*** Təravih namazı**.

Təravih namazı camaatla birlikdə qılınan sünnə namazlarından biridir. Təravih: istirahət, dincəlmək deməkdir. Bu namaz uzun qılındığı üçün müsəlmanlar hər dörd rükətdən sonra dincəldiklərinə görə belə adlanır. Bu namaz səslə oxunan və on bir rükətdən ibarət olan namazdır. Bu namazı məsciddə, camaatla bir yerdə qılmaq əfzəldir.

Aişə (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ məsciddə gecələrin birində (Ramazan ayında) namaz qıldı və camaat da onunla bərabər namaz qıldı. Ertəsi gün yenə namaz qıldı və əvvəlkindən də çox camaat onunla bərabər namazı qıldılar. Üçüncü (və ya dördüncü) gün yenə bu hal təkrar oldu və ondan sonra Peyğəmbər ﷺ camaatla namaz qılmağa gəlmədi. O gecənin səhəri Peyğəmbər ﷺ dedi: "Sizin bu namazı qılmaq üçün belə çox sayda cəm olduğunuzu gördüm və onun sizə fərz buyurulacağından qorxduğum üçün camaat namazına gəlmədim".[41]

Peyğəmbərin ﷺ vəfatından sonra Ömərin (r.a) vaxtında səhabələr bu namazı camaatla birgə qılmağa başladılar. Bu namazı imamla birlikdə başlayıb və onunla bitirən şəxsə böyük savab vardır. Peyğəmbər ﷺ demişdir: "Kim imamla birlikdə namaza başlayar və onunla birlikdə bitirərsə həmin şəxsə gecəni oyaq qalıb namazda keçirməyin savabı yazılar".[42]

Təvavih namazının vaxtı işa namazından sonra sübh namazınadəkdir.

*** Cənazə namazı.**

Cənazə namazını qılmağın böyük fəziləti vardır.

Əbu Hüreyra (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ buyurdu: "Cənazədə iştirak edib namazını qılana bir, (ondan sonra) dəfn olunana qədər onu təqib edənə isə iki qirat qədər savab yazılır". Səhabələr: "İki qirat nə qədərdir?"- deyə soruşduqda, Peyğəmbər ﷺ:

[41] Səhihu-l-Buxari 1129, Səhih Muslim 1780

[42] Sunənu Əbu Davud 1375, Sunənu-t-Tirmizi 805, Sunənu-n-Nəsəi 1363

“İki böyük dağ kimidir”- deyə cavab verdi”.[43] Başqa rəvayətdə “Qiratların ən kiçiyi Uhud dağı kimidir” deyilir.[44]

Cənazə namazı dörd təkbirdən ibarət rüku və səcdəsiz, səssiz qılınan namazdır.

Əbu Hüreyra (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ Nəcaşinin ölüm xəbərini elan etdikdən sonra namaz qılınan yerə gəldi, cərgələri düzdü və dörd təkbirli (rüku və səcdəsiz) namaz qıldı.[45]

Bu hədis dəlalət edir ki, qəriblikdə ölən şəxsə cənazə namazı qılınmayıbsa onun üçün bu namazı qılmaq lazımdır. Cənazə namazını camaatla qılmaq əfzəldir. Hətta bu namazı qəbiristanlıqda da qılmaq olar. Abdullah ibn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ meyit dəfn olunduqdan sonra qəbrin önündə dayanıb dörd təkbirli (rüku və səcdəsiz ) namaz qıldı.[46]

Kişiyə cənazə namazı qılınarkən imam onun baş tərəfində, qadına cənazə namazı qılınarkən isə onun tən orta tərəfində dayanmalıdır.

Cənazə namazından öncə meyitin kişi, qadın yaxud da uşaq olduğunu bildirmək lazımdır.

Cənazə namazının qılarkən birinci təkbirdən sonra Fatihə surəsi, ikinci təkbirdən sonra Peyğəmbərə ﷺ salavat oxunur, üçüncü təkbirdən sonra vəfat edən şəxs üçün dua edilir və dördüncü təkbirdən sonra sağ tərəfə salam verməklə namaz tamamlanır.

### Camaat namazının məsciddə ikinci dəfə qılınması

Camaat namazının məsciddə təkrar qılınması altı halda baş verir.

1. Daimi imamı olmayan məsciddə ikinci dəfə camaat namazı qılınması. Bu caizdir.

2. Daimi imamı olan məsciddə yer olmadığından ikinci dəfə camaat namazı qılınması. Bu da caizdir.

3. Daimi imamı olan məsciddə camaat namazına yetişmədikdə ikinci dəfə camaat namazı qılınması. Alimlər bu məsələdə ixtilaf

---

[43] Səhihu-l-Buxari 1325, 2186

[44] Səhih Muslim 2189

[45] Səhihu-l-Buxari 1333, Səhih Muslim 2201

[46] Səhih Muslim 2208

etmişlər. Bəzi alimlərin rəyinə görə caiz, bəzilərinin rəyinə görə isə caiz deyildir.

4. Eyni vaxta, bir məsciddə iki camaat namazının qılınması. Bu hal caiz deyildir.

5. Yollarda olan məscidlərdə təkrar camaat namazı qılmaq caizdir.

6. Eyni imamın camaat namazını təkrar qıldırması. Bu cür etmək haramdır.

### Namazı qıldıqdan sonra camaat namazına qoşulmaq

Namazı tək qıldıqdan sonra camaat namazına rast gəldikdə həmin adamın camaat namazına qoşulması sünnədir. Yezid ibn əl-Əsvəd (r.a) dedi: "Peyğəmbərlə ﷺ bir yerdə həcc ziyarətində olduqda, Xeyf məscidində fəcr namazını qıldıq. O zaman mən cavan uşaq idim. Namazını bitirdikdə iki kişinin onunla namaz qılmadığını gördü, və dedi: "Bizimlə birlikdə namaz qılmanıza mane olan nədir?" Onlar dedilər: "Ey Allahın elçisi! Biz səfərdə ikən namazımızı qılmışıq". Peyğəmbər ﷺ dedi: "Heç vaxt belə etməyin! Başqa bir yerdə namazınızı qılıb məscidə gəldiyiniz zaman camaatın namaz qıldığını görsəniz onlara qoşulun, bu sizin üçün nafilə olsun".[47]

Namazı camaatla birlikdə qıldıqdan sonra ayrı camaat namazına rast gəldikdə də camaat namazına qoşulmaq olar. Cabir ibn Abdullah (r.a) rəvayət edir ki, Muaz ibn Cəbəl (r.a) Peyğəmbər ﷺ ilə birlikdə İşa namazını qılar, sonra isə gedib qövmünə İşa namazını qıldırardı.[48] Peyğəmbərin ﷺ Muaz ibn Cəbəlin (r.a) bu əməlini inkar etməməsi onun caiz olmasına dəlalət edir.

### Namazda imam dayanmaq

Namazda imam dayanmaq şərii vəzifədir. İslamın ən əzəmətli rükunlarından biri olan namazda imam olan şəxs nümunəvi müsəlmana xas olan sifətlərə sahib olmalıdır. Camaata imamlıq edən şəxs Allahdan qorxan, adil, namazın keyfiyyətini bilən, İslam

[47] Sunənu Əbu Davud 1/136, Sunənu-t-Tirmizi 2/18,19, Mustədraku Hakim 1/244

[48] Səhih Müslim 1043

elmlərindən xəbərdar olan adam olmalıdır. İmam durmaq böyük bir məsuliyyətdir. Əbu Hüreyra (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "İmam zamindir".[49]

Peyğəmbərin ﷺ həyatının sonuna qədər müsəlmanlara imam durması, həmçinin ondan sonra gələn raşidi xəlifələrinin də həyatlarının sonuna qədər namazlarda imam durmaları imam olmağın fəzilətinə və məsuliyyətli iş olmasına işarədir. Səhl ibn Sad (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "İmam zamindir. (Namazını) gözəl şəkildə qılarsa savabı özünə və sizə yazılar. Yox pis şəkildə qılarsa (günah sizə yox ona yazılar)".[50]

İmam Mənəvi deyir: "Müsəlmanların boynunda olan şərii vəzifə içlərindən ən xeyirlisi və dindar olanını özlərinə imam seçməlidirlər".[51]

Daimi imamı olmayan məsciddə və yaxud camaat namaz qılınan hər hansı bir yerdə imamı sünnədə gələn yolla təyin etmək lazımdır. İlk növbədə Qurandan çoxlu əzbər bilən, Quranı xətasız oxuyan, namazın keyfiyyətini yüksək şəkildə mənimsəyən, elmli, adil və Allahdan lazımı qədər qorxan bir müsəlman olmalıdır. Peyğəmbər ﷺ demişdir: "Allahın kitabından ən çox bilən şəxs müsəlmanlara imam dursun". [52]

Hədisdə Quranı ən çox bilən deyildikdə həmçinin ona ən çox əməl edən də nəzərdə tutulur. Çünki səhabələr on ayə öyrənib ona əməl etməyincə, növbəti ayələrə keçməzdilər. Məhz buna görə Peyğəmbər ﷺ müsəlmanlara Quranı ən çox bilənin imam durmasını əmr etmişdir. Quranı çox bilən və ona əməl edən şəxs şəkk yoxdur ki, ən əfzəl insanlardandır.

Əgər iki qari Quranı eyni səviyyədə bilirlərsə onda onlardan sünnəni ən çox bilən imam dayanmalıdır. Bunda da eyni səviyyədə olarlarsa o zaman hicrəti qabaq olan imam dayanmalıdır (Şeyxul-İslam ibn Teymiyyə hicrəti saleh əməli daha çox olan və günahları

[49] Sunənu Əbu Davud 517, Sunənu-t-Tirmizi 207
[50] Sunənu İbn Məcah 981. Albani bu hədisi səhihləşdirmişdir.
[51] Feydul- Qadir 6/88
[52] Sunənu Muslim 673

tərk edən kimi izah edir). Yenə eyni səviyyədə olarlarsa o zaman onlardan İslamı ən tez qəbul edəni imam dayanmalıdır. Yenə eyni səviyyədə olarlarsa o zaman yaşda böyük olan şəxs imam dayanmalıdır. Nəhayət yaşları da eyni olarsa o zaman imam püşk atmaqla təyin edilir. Peyğəmbər ﷺ buyurur: "Allahın kitabından ən çox bilən şəxs müsəlmanlara imam dursun. Quranı eyni səviyyədə bilərlərsə sünnəni çox bilən, yenə eyni səviyyədə olarlarsa tez hicrət edən, yenə eyni səviyyədə olarlarsa o zaman yaşı çox olan imam dayansın".[53]

Ev sahibi imam durmağa qonaqdan daha haqlıdır. İmam da öz məscidinin sultanıdır. Məhz buna görə onun gəlişinə qədər namazı gözləmək və ya izni ilə camaat namazını qılmaq lazımdır. İmam izn verdikdə isə kimsə onu əvəzləyə bilər.

### Fasiq imamın arxasında qılınan namazın hökmü

Fasiq: küfr həddinə çatmayan böyük günah işləyən, yaxud kiçik günah üzərində davam edən müsəlmandır. Əgər fasiq şəxs imam dayanarsa onun arxasında namaz qılmaq caizdir. Buna bir çox hədislər və səhabələrin əməlləri dəlalət edir. Ümumilikdə isə qayda ondan ibarətdir ki, namazı səhih olanın imam durması da səhihdir. Lakin bu cür insanı imam seçmək şəriətə müxalifdir. İmamlığa layiq olan şəxs dura-dura fasiqi imam qoymaq isə haramdır. Çünki əgər fasiq bir müsəlmanın verdiyi xəbəri dəqiqləşdirmədən qəbul etmək olmazsa, deməli bu cür insanı imam təyin etməkdən də çəkinmək lazımdır. Uca Allah buyurur: *"Ey iman gətirənlər! Əgər bir fasiq sizə (pis) bir xəbər gətirsə, dərhal (onun doğruluğunu) yoxlayın, yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız!"*[54]

### Uşağın arxasında qılınan namazın hökmü

Uşaq dedikdə həddi-buluğa çatmamış insan nəzərdə tutulur. Uşaq istər fərz istərsə də sünnə namazında imam dayana bilər. Amr ibn

---

[53] Səhih Muslim 673

[54] əl-Hucurat surəsi, 6

Sələmə (r.a) altı, yaxud da yeddi yaşı olarkən öz qövmünə imam təyin edilmişdir. Peyğəmbər ﷺ də bunu qadağan etməmişdir.[55]

**Kor adamın arxasında qılınan namazın hökmü**

Kor adam imamlığa layiq olan sifətlərə malikdirsə o zaman o, imam dura bilər. Peyğəmbər ﷺ İbn Ummu Maktumu (r.a) iki dəfə Mədinəyə imam təyin etmişdir.[56] Həmçinin Utban ibn Məlik (r.a) kor olsa da öz qövmünə imam dayanırdı.[57]

**Qul olan şəxsin imam dayanmasının hökmü**

Qul olan şəxs namazda camaata imamlıq edə bilər. Əbu Huzeyfənin (r.a) mövlası Səlim (r.a) Peyğəmbərin ﷺ vaxtında imam dayanardı.[58] İmam Buxari öz Səhih əsərində qulun imam dayanmasının caiz olması barədə müstəqil fəsil belə gətirir.

**Quranı yaxşı oxumayanın arxasında qılınan namaz**

Yəni Quran oxuduğu zaman təcviddə, yaxud da hərflərin deyilişində etdiyi xəta nəzərdə tutulur. Bu cür insan imam dayandıqda onun arxasında namaz qılmaq barədə alimlər demişlər. "Əgər savadsız müsəlman özü kimi savadsızlara imam dayanarsa onda hər ikisinin namazı səhihdir. Yox əgər bu cür imamın arxasında həm savadsız, həm də qari varsa onda savadsızların namazı səhih qarinin namazı isə batil olur".[59]

**Qadının qadınlara imam dayanmasının hökmü**

Peyğəmbər ﷺ Abdullahın qızı Ummu Varaqanın evinə gəlib ona ev əhlinə imam dayanmasını əmr etdi.[60] Həmçinin Aişə və Ummu Sələmənin də qadınlara imam dayanması sünnədə varid olmuşdur.

---

[55] Səhihu-l-Buxari 4302

[56] Sunənu Əbu Davud 2931 Albani bu hədisi səhihləşdirmişdir.

[57] Səhihu-l-Buxari 667, Səhih Muslim 33

[58] Səhihu-l-Buxari 692

[59] Muğni 3/30-41, İnsaf 268-270

[60] Sunənu Əbu Davud 592, Müsnədu Əhməd 6/405, Müstədraku Hakim 1203, Sunənu Beyhəqqi 3/130. Albani bu hədisi səhihləşdirmişdir.

## Kişinin qadınlara imam dayanmasının hökmü

Ümumən kişi qadınlara imam dayana bilər. Əgər qadınlar kişiyə yaddırsa və fitnə qorxusu yoxdursa kişinin qadınlara imam dayanması caizdir. Yox əgər qadın təkdirsə və kişiyə naməhrəmdirsə o zaman kişinin imam dayanması haramdır. İbn Abbas (r.a) Peyğəmbərdən ﷺ belə rəvayət etmişdir: "Sizlərdən biriniz məhrəni yanında olmayan qadınla təklikdə qalmasın".[61]

## Qadının kişiyə imam dayanmasının hökmü

Qadının kişiyə imam durması caiz deyildir. Əgər qadın kişiyə imam durarsa o zaman hər ikisinin namazları batil olur.

## Təyəmmüm edənin dəstəmazlı olana imam dayanmasının hökmü

Əgər bir şəxs hansısa bir səbəb üzündən təyəmmüm edibsə o, dəstəmaz alan camaata imam dayana bilər. Amr ibnul-As soyuq havada cünub olub təyəmmüm edir və sonra camaata imam dayanır. Peyğəmbərə ﷺ bunu çatdırdıqda o Amr ibnul-Asın əməlini təsdiq edir.[62]

## Müsafirin səfərdə olmayana imam dayanmasının hökmü

Müsafir getdiyi yerdə yerli camaata imam dayana bilər. Müsafir namazını qısaldıb qılır və salam verib namazı bitirdikdən sonra onun arxasında namaz qılan yerli camaat qalxıb namazı tamamlayırlar. Ömər (r.a) Məkkəyə gəldikdə oradakı müsəlmanlara imam dayanaraq namazı iki rükət qılır və sonra deyir: "Ey Məkkə əhli biz müsafirik siz namazınızı tamamlayın".[63]

## Səfərdə olmayanın müsafirə imam dayanmasının hökmü

Səfərdə olmayan müsafir olan şəxsə imam dayana bilər. Müsafir imama tabe olaraq onun arxasında namazını tam qılır. Hətta müsafir

---

[61] Səhihu-l-Buxari 1862. Səhih Muslim, 1341

[62] Sunənu Əbu Davud 334. Albani bu hədisi səhihləşdirmişdir.

[63] Muvatta İmam Malik 1/149

olan şəxs namazın axırıncı təşəhhüdünə çatsa belə namazı kamil şəkildə qılır. Buna səhabələrdən varid olan rəvayətlər dəlalət edir.

### İmamın fərz, məmunun[64] isə sünnə namazı qılmasının hökmü

İmam fərz məmun isə onu təqib edərək imamın arxasında sünnə namazı qıla bilər. Peyğəmbər ﷺ dedi: "Siz yolda ikən namazı qıldıqdan sonra məscidə gəldikdə camaatla birlikdə namaz qılın. O da sizin üçün nafilə olar".[65] İbn Qudama: "Elm əhli arasında bu məsələdə ixtilaf yoxdur"- demişdir.[66]

### İmamın sünnə məmunun isə fərz namazı qılmağının hökmü

İmam sünnə məmun isə onun arxasında fərz namazı qıla bilər. Muaz ibn Cəbəl (r.a) Peyğəmbərlə ﷺ işa namazını qılıb sonra qövmünün məscidinə gedər və həmin namazı onlara qıldırardı.[67] Muaz ibn Cəbəlin (r.a) qıldığı birinci namaz fərz, qövmünə qıldırdığı namaz isə onun üçün sünnə namazı olurdu. Peyğəmbər ﷺ də bunu qadağan etmirdi.

### Dəstəmazı olmayan imamın qıldırdığı namazın hökmü

İmam bilmədən dəstəmazsız halda camaata namaz qıldırar, sonra isə dəstəmazının olmadığını xatırlayarsa o zaman imam həmin namazı təzədən qılır. Camaata isə namazlarını təzədən qılmaq gərək deyil.

### Nəcasətli halda imam dayanmağın hökmü

Əgər paltarda, bədəndə və yaxud namaz qılınan yerdə nəcasət olarsa və imam namazdan öncə bunu bilib yadında olduğu halda namaz qıldırarsa, o zaman camaatın qıldığı namaz səhih, imamın namazı isə batil olur və imam bu əməlinə görə böyük günah qazanır. Yox əgər imam nəcasətin olduğunu namazdan əvvəl deyil, namazdan

[64] İmama tabe olaraq onun arxasında namaz qılan şəxs.
[65] Sunənu Əbu Davud 575, Sunənu-t-Tirmizi 219, Sunənu-n-Nəsai 858
[66] Muğni 3/68
[67] Sunənu-l-Buxari 700. Sunənu Muslim, 180-181.

sonra bilibsə, o zaman camaatın qıldığı namaz səhihdir, lakin imam namazını təzədən qılır. Şeyxul-İslam ibn Teymiyyə demişdir: "Raşidi xəlifələrdən gələn sünnə belədir. Onlar camaata namaz qıldırar sonra nəcasət gördükdən sonra namazlarını təkrar qılar camaata isə təzədən qılmağı əmr etməzdilər".[68]

**Namazda olarkən nəcasətin olmasını bilən imam nə etməlidir**

İmam namazda olarkən paltarında nəcasətin olmasını bidikdə, o paltarı çıxartmaqla övrət yeri (göbəkdən dizə qədər) açılmayacaqsa namaz qılmaqda davam edərək nəcasətli paltarını çıxarır. Lakin paltarını çıxartmaqla övrət yeri açılacaqsa o zaman namazdan çıxır və öz yerinə camaatdan birini imam təyin edir.

Nəcasət bədəndə olarsa az hərəkət etmək şərti ilə onu təmizləyə bilərsə təmizləyərək namazına davam edir, yox təmizləmək mümkün olmadığı halda isə öz yerinə birini imam təyin etməklə namazdan çıxmalıdır.

**Camaatın sevmədiyi imamın arxasında qılınan namazın hökmü**

Əgər camaat imamı haqlı olaraq bəyənmirsə onda həmin adamın imam durması bəyənilmir və lakin arxasında qılınan namaz səhihdir.

Şeyxul-İslam ibn Teymiyyə[69] demişdir: "Əgər insanlar dinindəki nöqsanlara görə – yalan, zülm, bidəət və s. – bir şəxsi sevmirlərsə və dinində ondan daha saleh – doğru danışan, elmli, dindar və s. – olanı sevirlərsə, o zaman sevmədikləri şəxsi deyil sevdikləri insanı imam təyin etmək onlara vacibdir. Necə ki, bu haqda Peyğəmbərdən ﷺ varid olan hədisdə deyilir: "Üç nəfərin namazı başından yuxarı qalxmaz; ağasından qaçıb geri dönməyən kölə, ərini qəzəbləndirib yatmış qadın və camaatın xoşlamadığı imam"[70]

---

[68] Məcmuəl fətava 20/264, 365

[69] Məcmuu-l-Fətava İbn Teymiyyə 23/373.

[70] Sunənu-t-Tirmizi360. Albanı bu hədisi həsən adlandırmışdır

## İmamın namazı çox uzatmasının hökmü

Namaz qıldıran adamın namazı çox uzatmaması Peyğəmbərin ﷺ sünnəsidir. Namaz qıldırarkən bəyənilən əməl sünnədə varid olan surələr qədər və ya ondan az oxumaqdır. Sünnədə varid olandan çox oxumaq isə bəyənilmir. Peyğəmbər ﷺ Muaz ibn Cəbəli (r.a) namazı uzun-uzadı qıldırdığına görə qınamış və onun bu əməlini bəyənməmişdir.

Əbu Hüreyra (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ buyurdu: "Sizdən biriniz camaata namaz qıldırdıqda onu yüngülləşdirin, çünki onların arasında zəif, xəstə və ehtiyac içində olanı var. Tək qıldığınız namazı isə istədiyiniz qədər uzadın".[71]

Muhəmməd ibn Saleh əl-Useymin deyir: "Sünnədə varid olandan çox oxumaq haramdır.[72] . İnsan tək qıldıqda isə nə qədər istəsə uzada bilər.

Namazın birinci rükətini ikinci rükətindən çox uzatmaq sünnədir. Qatədə (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ birinci rükəti ikinci rükətə nisbətən daha uzun qılardı.[73] Buna baxmayaraq ikinci rükətdə birinci rükətdə olduğundan bir az çox oxumaq olar. Peyğəmbər ﷺ cümə namazında birinci rükətdə əl-Aləq, ikinci rükətdə isə əl-Ğaşiyə surələrini oxuyardı. Məlumdur ki, əl-Ğaşiyə surəsi əl-Aləq surəsindən bir az uzundur.

## Namazın vaxtı çıxdıqdan sonra azan və iqamə oxumağın hökmü

Ümumiyyətlə azan və iqamə demək camaat üçün istənilən halda (səfərdə, evdə, vaxtı ötmüş namazı qıldıqda) fardul-kifayədir. Tək namaz qılan şəxs üçün isə müstəhəbdir. Qadınlar üçün nə azan nə də iqamə vermək vacib deyildir. Lakin səslərini çox uca qaldırmadan bunu etmələri caizdir. Azan və iqaməsiz namaz qılan camaatın namazı səhih hesab olunur, lakin vacibi tərk etdiyinə görə tövbə etməsi lazım gəlir. Unutqanlıqdan və ya bilməyərəkdən bunu edənlər isə müstəsnadır.

---

[71] Sunənu-l-Buxari 803, Sunənu Müslim 1047

[72] əş-Şəhru-l-Mumti alə zadu-l-Mustəqnəi 4/ 273

[73] Səhuhu-l-Buxari 776, Səhih Muslim 451

Əgər namazın vaxtı çıxarsa azan və iqamə verilməsi sünnədir. Yox əgər buraxılan bir neçə namaz olsa onda birinci namaz üçün azan və iqamə verilir, o biri namazlar üçün isə yalnız iqamə verilir.

Azanı lent yazısı isə vermək olmaz. Bu adət hal-hazırda müsəlmanların məsciddə etdikləri xətalardan biridir. Azanı lent yazısı ilə verməyin şəriətə bir neçə müxalifliyi vardır.

– müəzzin böyük savabdan məhrum olur.

– Peyğəmbərin ﷺ yoluna müxalifdir. Çünki Peyğəmbər ﷺ demişdir: "Namaz yetişdikdə sizlərdən biriniz azan versin".[74]

– azan verməyin şərtlərindən biri də niyyətdir. Elə bu səbəbdən də dəlinin verdiyi azan niyyətsiz olduğu üçün qəbul deyildir.

– bu hərəkət bidət qapısını açan amillərdəndir.

## Daimi imamı gözləməyin hökmü

Alimlər ittifaq etmişlər ki, daimi imamı olan məsciddə həmin imamdan elmli, təqvalı, və ya ondan hörmətli adam olsa da belə namazı məscidin daimi imamı qıldırmalıdır. İmam məscidin məsul şəxsi olduğu üçün onun izni olmadan ayrısının imam durması haramdır. Peyğəmbər ﷺ demişdir: "Heç bir kimsə başqa birinin yerində imamlıq etməsin".[75]

Başqasının imam dayanması daimi imamın özünün kimisə imam təyin etdiyi halda, yaxud namaza gəlmədikdə və başqa üzrlü səbəblər olduqda caizdir. Yuxarıda qeyd etdiyimiz kimi camaata namaz qıldırmaq üçün təyin olunan imam sünnəyə uyğun şəkildə seçilməlidir.

## Camaat namazında imamın arxasında Quran oxumağın hökmü

Camaatla birlikdə qılınan namazlardan bəziləri səsli bəziləri isə səssiz qılınır. Səssiz qılınan namazın hər rükətində fatihə surəsini oxumaq vacib, əvvəlki iki rükətində isə fatihə surəsindən sonra Qurandan bəzi ayə və yaxud surə oxumaq isə sünnədir. Cabir (r.a)

---

[74] Səhihu-l-Buxari 628, 630. Səhih Müslim 674

[75] Səhih Muslim 673

dedi: “Biz zöhr və əsr namazını qıldıqda imamın arxasında birinci iki rükətdə əl-Fatihə və başqa bir surə, axır iki rükətində isə tək əl-Fatihəni oxuyurduq”.[76]

Səslə qılınan namazlarda isə imam uca səslə oxuduğu rükətlərdə məmunun əl-Fatihə surəsini oxuyub oxunmaması barədə alimlər ixtilaf etmişlər.

Birinci rəy: imamın arxasında istər səsli, istərsə də səssiz namazda əl-Fatihə surəsini oxumaq vacibdir. Bunu tərk edən adamın namazı batil olur. Bu rəy Şafii məzhəbinin və bəzi Hənbəli alimlərinin rəyidir. Həmçinin Buxari və Şövkaninin bəyəndiyi rəydir. Birinci rəyə aid olan dəlillərdən bir neçəsinə nəzər salaq. Ubədə ibn Samit rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: “əl-Fatihə surəsini oxumayan şəxsin namazı yoxdur”[77]. Əbu Hüreyra rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: “Kim namaz qılar və Quranın anasını (əl-Fatihə surəsini) oxumayarsa o (namaz) kamil deyildir”.[78]

İkinci rəy: imamın arxasında ümumiyyətlə Qurandan bir şey oxumaq olmaz. Abdullah ibn Şəddəd (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: “Kimin imamı varsa imamın oxuduğu ona kifayətdir”.[79] Qeyd etmək lazımdır ki, bu rəyin əsas dəlili sayılan və Abdullah ibn Şəddədən (r.a) rəvayət edilən hədis zəifdir. Həmçinin bu rəyin özü digər səhih hədislərə müxalif olduğu üçün ən zəif rəy sayılır.

Üçüncü rəy: məmun imamın arxasında səssiz namazlarda oxuyur, səsli namazlarda isə imamı dinləyib susur. Uca Allah buyurur: *“Quran oxuyan zaman onu dinləyin və susun ki, ( onun sayəsində) sizə rəhm olunsun”.*[80]

İbn Ömərdən (r.a) “İmamın arxasında oxuyaqmı?”- deyə soruşduqda o: “Sizlərdən biriniz imamın arxasında namaz qıldıqda onun

---

[76] Sunən ibn Macə 827

[77] Səhihu-l-Buxari 756, Səhih Müslim 394, Sünənu Əbu Davud 822, Sünənu-t-Tirmizi 247

[78] Səhih Muslim 395

[79] Sünənu İbn Məcah 1/ 105, 106. Hədis zəifdir.

[80] əl-Əraf, 204

qiraəti sizə yetər, tək qıldıqda isə oxusun"- deyə cavab verdi. İbn Ömər özü imamın arxasında oxumazdı.[81]

Əksər sələfilərin etimad etdikləri rəy isə ondan ibarətdir ki, əgər məmun imamın oxuduğunu eşidirsə o zaman susmağı oxumağından daha xeyirlidir, yox əgər imamın qiraətini eşitmirsə oxumağı susmağından daha xeyirlidir. Doğrusunu isə Allah bilir.

**Məmun imamla qıldıqda dayandığı yer**

* Məmun tək olduqda imamın sağ tərəfində dayanmalıdır. Əgər bilməyərəkdən imamın solunda dayanarsa onda namaz batil olmur, lakin imam onu sağ tərəfinə doğru yönləndirməlidir.

* Əgər məmun imamdan qabaqda dayanarsa onda məmunun namazı batil olur. Yer olmadıqda yaxud başqa üzrlü səbəblər olduqda məmunun imamdan öndə durub namaz qılması qəbuldur. Şeyxul İslam ibn Teymiyyə demişdir: "Zəruriyyət olduqda məmunun imamdan öndə qıldığı namaz səhihdir. Başqa halda isə namazı səhih deyildir".[82] Muhamməd ibn Saleh əl-Useyminin də bəyəndiyi rəy budur.[83]

* İki nəfər camaat namazı qıldıqda onlardan biri imam dayanar, o biri isə imamın arxasında tək olaraq namaz qılarsa o zaman məmunun qıldığı namaz batil olur. Həmçinin səffin arxasında bir nəfərin tək qıldığı namaz da batildir. Peyğəmbər ﷺ bir nəfərin səffin arxasında tək namaz qıldığını görüb ona namazı təzədən qılmağı əmr etdi.[84]

Üzrlü səbəbdən məmun imamın arxasında tək dayanarsa qıldığı namaz səhihdir. Bu İbn Teymiyyənin[85], Sədi[86] və Muhəmməd ibn Saleh əl-Useyminin üstünlük verdikləri rəydir.[87] Qeyd edək ki, camaat namazı qılan iki nəfərdən biri qadındırsa, o zaman qadın

---

[81] Beyhıqqi, Sunənil Kubra 2/ 161

[82] Məsmuəl-fətava 23/ 404, 405

[83] əş-Şəhru-l-Mumti alə zadu-l-Mustəqnəi 5 4/ 372

[84] Sunənu Əbu Davud 682, Sunənu-t-Tirmizi 1004, Musnədu Əhməd 4/228

[85] Məcmuəl-fətava 23/ 396

[86] əl-Fətava əs-Sədiyyə 1/ 171

[87] əş-Şəhru-l-Mumti alə zadu-l-Mustəqnəi 4/ 382

imamın yanında deyil arxasında dayanmalıdır. İbn Abdul-Bər demişdir: "Alimlər ittifaq ediblər ki, qadın kişi imamın arxasında tək dayanır. Bu məsələdə sünnə qadının imamın sağında deyil, arxasında durmasındadır".[88]

* Məmunlar iki nəfər və daha çox olduqda isə imamın arxasında, imam isə qabaqda onların ortasında dayanmalıdır. Uşaqlar isə kişilərin arxasında qadınlar da uşaqların arxasında dayanırlar. Əgər uşaqlar səs salırlarsa onda onları kişilərin arasına düzmək lazımdır.[89]

### İmam nə zaman camaata doğru çönməlidir

İmam namazı bitirdikdən sonra üç dəfə "əstağfirullah" deyib duanı oxuduqdan sonra camaata doğru çönməyi sünnədir. Qibləyə sarı çox oturmağı bəyənilmir. Bu əməl sünnəyə müxalifdir. Həmçinin camaat elə başa düşər ki, imam nə isə unudub yadına salmaq istəyir. İmam duanı bitirdikdən sonra istər sağ, istərsə də sol tərəfdən camaata tərəf çönə bilər. Hər iki tərəfdən insanlara tərəf çönmək sünnədə varid olub.

### Səflərin ən əfzəli

Namaza başlamazdan əvvəl səfləri düzəltmək vacibdir. Ənəs ibn Malik (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ buyurdu: "Cərgələrinizi düzəldin! Həqiqətən, cərgələrin düz olması namazın kamilliyindəndir". [90] Ən-Nüman ibn Bəşir (r.a) rəvayət edir ki, Mən Peyğəmbərin (s.ə.s) "Cərgələrinizi düzəldin, yoxsa Allah da sizin qəlblərinizi biri-birindən ayırar"- dediyini eşitdim.[91] Peyğəmbərin ﷺ cərgələri düzəltməyi bizə əmr etməsi bu əməlin vacib olmasından xəbər verir. Camaat buna riayət etmədiyi təqdirdə günah qazanırlar.

Ən əfzəl səff imamın arxasından başlayan birinci səffdir. Peyğəmbər ﷺ birinci səffin fəzilətini bəyan etmişdir. Əbu Hüreyra (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Əgər insanlar azana

---

[88] əl-İstizkər 6/249
[89] əş-Şəhru-l-Mumti alə zadu-l-Mustəqnəi 4/ 391
[90] Səhihu-l-Buxari 723, Səhih Müslim 974
[91] Səhihu-l-Buxari 717, Səhih Müslim 977

cavab verməyin və birinci səffdə durmağın nə qədər fəzilətli olduğunu bilsəydilər və buna nail olmaq üçün püşk atmaqdan başqa bir şey tapmasaydılar, püşk atardılar”.[92]

Ubeyy ibn Kəb (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: “Həqiqətən, birinci səff mələklərin səfflərinə bənzəyir”[93]

Birinci səff səfflərin ən xeyirlisidir. Əbu Hüreyra (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Kişilərin ən xeyirli cərgəsi birincisi, ən şərr (xeyiri az olan) cərgəsi isə axırıncıdır. Qadınların ən xeyirli cərgəsi axırıncısı, ən şərr (xeyri az olan) cərgəsi isə birincisidir”[94] Ən-Nümən ibn Bəşir (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: ”Həqiqətən Allah və mələkləri birinci səffdə dayananlara xeyir dua verərlər”.[95]

* Səffdə sağ tərəfdə durmaq sol tərəfdə durmaqdan daha əfzəldir. Aişə (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Həqiqətən, Allah və mələkləri  səffin sağ tərəfində duranlara xeyir dua edərlər”[96]

* İki dirək arasında səffin olması bəyənilmir. Yer az olduqda isə iki dirək arasında camaat namazı qılmaq olar. İmamın və tək namaz qılan şəxsin isə iki dirək arasında durub namaz qılması caizdir. Abdullah bin Ömər (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ Kəbəyə gəldikdə iki dirək arasında durub namaz qıldı.[97]

## Namazda imama tabe olmağın növləri

**Birinci hal:** İmamı qabaqlamaq. İmamı qabaqlamaq dedikdə məmunun  namazda edilən hərəkətdə, yaxud da ucadan deyilən sözlərdə imamı qabaqlaması nəzərdə tutulur. İmamı qabaqlamaq haramdır. Əbu Hüreyra (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: “İmamdan əvvəl başını (səcdədən) qaldıran qorxmur ki, Allah da onun başını – və ya surətini – uzunqulağın surətinə çevirər?”[98] İbn Teymiyyə demişdir: “İmamı ötməyin haram olması barədə alimlər

[92] Səhihu-l-Buxari 615, Səhih Müslim 137, 139
[93] Sunənu Əbu Davud 554, Albani hədisi səhihləşdirmişdir.
[94] Səhih Muslim 440
[95] Musnədu Əhməd 4/269. Albani hədisi həsənləşdirmişdir.
[96] Sunənu Əbu Davud 676, Albani hədisi həsənləşdirmişdir
[97] Səhihu-l- Buxari 504, Səhih Müslim 1329
[98] Səhihu-l- Buxari 691, Səhih Müslim 962, 963

ittifaq etmişlər. İmamdan qabaq rüku və ya səcdə etmək olmaz".[99] Ənəs ibn Malik (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ bir gün bizə namaz qıldırdı sonra üzünü bizə tərəf çevirib dedi: "Ey insanlar mən sizin imamınızam. Məni nə rükuda, nə səcdədə, nə qiyamda, nə də namazı bitirməkdə qabaqlamayın".[100]

Bilərəkdən imamı ötmək isə namazı batil edir. Muhamməd ibn Saleh əl-Useymin demişdir: "Kim imamı bilərəkdən ötərsə namazı batil olar".[101] Əgər bilmədən, yaxud unudub imamı ötən şəxs qayıdıb təzədən həmin əməli imamdan sonra təkrar etməlidir. Həmin şəxsin namazı səhihdir.

**İkinci hal:** İmamla bərabər hərəkət etmək. İmamla bərabər hərəkət həm sözlərdə, həm də əməllərdə olur. Səssiz namazlarda təkbirətul-ehramdan başqa olan sözləri imamla bərabər demək namazı batil etmir. Təkbirətul-ehramı isə imamla bərabər demək, imamın hələ təkbiri bitirib namaza başlamadığı üçün namazı batil edir. Təkbirdən başqa yerdə qalan sözləri imamla bir demək namazı batil etmir. Məsələn imamın təşəhhüd oxuduğunu eşidib, ondan öndə olmağın heç bir ziyanı yoxdur. Məmunun namazda olan hərəkətləri imamla bərabər etməsi isə bəyənilmir. Təkbiratul-ehramdan başqa namazda olan təkbirləri imamla bərabər etmək isə haramdır. Əbu Hüreyra (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Həqiqətən imam, namazı qıldırmaq üçün seçilib, ona müxalif olmayın! Təkbir etdikdə təkbir, rüku etdikdə də rüku edin! Səmi Allahu limən həmidəh dedikdə Rabbənə və ləkəl həmd deyin! Səcdə etdikdə səcdə edin! İmam namazı oturaraq qılarsa, siz də oturmuş vəziyyətdə qılın!"[102]

**Üçüncü hal:** İmamdan geri qalmaq. Yəni məmun bilərəkdən imamdan geri qalarsa, imam həmin rüknu tamamlamamışdan qabaq ona yetişərsə onda namazı səhihdir. Lakin bilərəkdən imamı təqib etmədiyi üçün günah qazanır. Məmun imamdan bir və ya daha çox rükn geri qalarsa namazı batil olur və həmin şəxs günah qazanır.

---

[99] Məcmuəl-fətava 23/336
[100] Səhih Müslim 1/320
[101] əş-Şəhru-l-Mumti alə zadu-l-Mustəqnəi 4/261-262
[102] Səhihu-l-Buxari 722,734, Səhih Müslim 920

**Dördüncü hal:** Rükunları imamdan dərhal sonra yerinə yetirmək. Peyğəmbər ﷺ bizə imamla birlikdə namaz qıldıqda bu cür qılmağımızı əmr etmişdir.

## Qadınların camaat namazına gəlməsi

Dinimiz qadınların məscidə xeyir işlər üçün getməsinə icazə vermişdir. Onlar da məscidə gəlib camaat namazı qılıb, zikr edib, elm məclislərində otura bilərlər. Fərqi yoxdur istər qadın cavan və ya yaşlı olsun. Peyğəmbərin ﷺ dövründə qadınlar da camaat namazına gəlir və Peyğəmbər ﷺ onlara bunu qadağan etmirdi. Aişə (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ fəcr namazını qılarkən hicablarına bürünmüş mömin qadınlar da ona qoşulardı. (Namazlarını qıldıqdan) sonra isə evlərinə qayıdar və qaranlıq olduğundan heç kəs onları tanımazdı.[103]

Qadın camaat namazını qılmaq üçün məscidə gəlmək istədikdə isə bunu ona qadağan etmək haramdır. Abdullah ibn Ömər (r.a) rəvayət edir ki, Peyğəmbər (s.ə.s) dedi: "Sizlərdən birinizin zövcəsi məscidə getmək üçün ondan izn istədiyi zaman, ona mane olmasın". Bunu eşidən Bilal ibn Abdullah[104]: "Allaha and olsun ki, onlara (məscidə getməyə) mane olacağıq"– dedi. Abdullah (r.a) yaxınlaşıb onu çox sərt danladıqdan sonra dedi: "Mən sənə Rəsulullahdan (s.ə.s) hədis danışıram, sən də deyirsən ki, Allaha and olsun ki, onlara mane olacağıq".[105] Başqa rəvayətdə: "Allahın qullarına (müsəlman qadınlara) məscidə getməyi qadağan etməyin!"[106]

Qadın məscidə gəldikdə İslam şəriətinə uyğun tərzdə geyinməlidir. Bunlar isə aşağıdakı şərtlərə əməl etməklə olur:
– əl və üzdən başqa bütün bədən üzvlərini örtmək
– dar paltar geyməmək
– şəffaf paltar geyməmək
– cəlbedici paltar geyməmək
– kişi və ya kafirlərin geyiminə oxşamamaq

---

[103] Səhihu-l-Buxari 578, Səhih Müslim 1456
[104] Bilal ibn Abdullah ibn Ömər ibni-l-Xəttab.
[105] Səhihu-l- Buxari 873, Səhih Müslim987,988.
[106] Səhih Müslim 989

– zinət taxmamaq
– ətirlənməmək
– fitnəyə səbəb olmamaq

## Qadınların camaat namazını qılması

Qadınların camaat namazını qılması sünnədir. Qadınlar öz aralarında imamı, kişilər imamı təyin etdiyi kimi təyin edirlər. Ummu Varaqa, Aişə və Ummu Sələmənin qadınlara imam durması sünnədə varid olmuşdur. Kişilər camaatla qıla bilən hər bir sünnə və fərz namazlarını qadınlar da qıla bilərlər.

Qadınların evdə camaat namazını qılması məscidə gedib kişilərlə birlikdə qılmasından daha əfzəldir. Səslə qılınan namazlarda imam dayanan qadın naməhrəm kişinin onun səsini eşitmədiyi təqdirdə ucadan oxuya bilər.

## Üzr olduqda camaat namazına gəlməmək

Bəzi üzrlü səbəblər olduqda camaat namazına gəlməmək olar. Bu üzrlər iki qismə bölünür. Ümumi və xüsusi olan üzrlər.

Ümumi üzrlərə güclü yağış, külək, soyuq, isti və buna oxşar səbəbləri misal göstərmək olar. Bu cür üzrü olub camaat namazına getməyən müsəlman günah qazanmır.

Xüsusi üzrlərə isə aşağıdakıları misal gətirmək olar:

Xəstəlik. O xəstəlik ki, müsəlmanın camaat namazına getməyinə ya mane olur, ya da çətinlik törədir. Uca Allah buyurur: *"Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər)"*[107] Başqa ayədə buyurur: *"O (dini üçün) sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı."*[108] Hətta Peyğəmbər ﷺ xəstələndiyi zaman camaat namazını tərk etmişdir.

Qorxu. Müsəlman bir şəxs canına, malına və namusuna görə qorxduqda, yaxud onlara bir zərər dəymək təhlükəsi ilə üzləşdikdə camaat namazına getməyə bilər. Peyğəmbər ﷺ buyurmuşdur: "Azanı

[107] əl-Bəqərə surəsi, 286
[108] əl-Həcc surəsi, 78

eşidib üzrü olmadığı halda namaza gəlməyən şəxsin namazı yoxdur". Səhabələr soruşdular: "Ey Allahın elçisi üzr nədir?" Peyğəmbər ﷺ: "Qorxu və xəstəlik"- deyə cavab verdi. [109]

Həmçinin yemək gəldikdə namaz qılan şəxsin fikri yeməyin yanında qalarsa o zaman ilk olaraq yeməyi yeməli sonra isə namazı qılmalıdır. Bir şərtlə ki namazın vaxtı çıxmasın. Bu da İslam dininin sadə və asan olmasına dəlalət edir. Aişə (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "Şam yeməyi gətirildiyi zaman iqamə verilərsə, əvvəlcə yeməyi yeyin (sonra namaz qılın)".[110] İbn Ömər sünnədən ən möhkəm yapışan səhabə olduğu halda imamın namaz qılmasının səsini eşidə-eşidə yemək yeyərdi.[111]

Pis iy gəldikdə camaat namazına getməmək.

Cabir ibn Abdullah (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "Sarımsaq və yaxud soğan yemiş şəxs məscidimizə yaxınlaşmayıb, evində otursun".[112]

Pis iydən insanlarla yanaşı mələklər də əziyyət çəkirlər.

## Sələfin camaat namazına münasibəti

Abdullah ibn Məsud (r.a) buyurmuşdur: "Kim sabah Allahla müsəlman kimi qarşılaşmaq istəyirsə namaz üçün azan verildikdə ona cavab versin. Çünki bu, hidayət yoludur. Namazları müxaliflər kimi evinizdə qılsanız Peyğəmbərinizin ﷺ yolunu tərk etmiş olarsınız. Peyğəmbərinizin yolunu tərk etdikdə zəlalətə düşərsiniz. Kim gözəl şəkildə dəstəmaz alıb məscidlərdən birinə gedərsə atdığı addımlardan hər biri onun bir günahını silər digəri isə savabını artırar. Camaat namazını nifaqı məlum olan münafiqlər tərk edərdilər".

---

[109] Beyhəqqinin Sunənil Kubra kitabı 1/185, Sunənu İbn Məcah 793 Albani bu hədisi səhihləşdirmişdir.

[110] Səhihu-l- Buxari 5465, Səhih Muslim 1241

[111] Səhihu-l-Buxari 672, Səhih Muslim 557

[112] Səhihu-l-Buxari 855, Səhih Muslim 1253

Muhəmməd ibn Munkədir deyir: “Mənə dünyanın ləzzətindən üç şey qalmışdır. Gecə namazını qılmaq, müsəlman qardaşlarımla birgə olmaq və camaatla namaz qılmaq”.

Süleyman ibn Həmzə əl-Məqdisi demişdir: “Fərz namazlarını iki dəfədən başqa həyatım boyu tək qılmamışam”. Süleyman ibn Həmzə doxsan yaşa qədər yaşamışdır.

Vakii ibn əl-Cərrah demişdir: “Ə'məş yetmiş ilə yaxın təkbirətul-ehramı tərk etməmişdir”.

Təqiyyiddin Süleyman demişdir: “Mən fərz namazını iki dəfə tək qılmışam. Onu qılanda da elə bil ki, qılmamışam”.[113]

Muhəmməd ibn Suməə demişdir: “Qırx il bir dəfədən başqa təkbirətul ehramı tərk etməmişəm. Anam öldüyü üçün bir namazı camaatla qıla bilmədim”.[114]

Səid ibn əl-Museyyib qırx il boyu nə vaxt azan verilirdisə artıq o məsciddə olurdu.[115]

İbrahim ibn Yezid demişdir: “Kim ki, təkbirətul-ehrama tənbəllik edirsə əlini ondan üz”.[116]

Allahdan istəyimiz budur ki, bizi Allahın dininin ən mühüm tələblərindən biri olan namazı davamiyyətli və gözəl şəkildə qılanlardan etsin! Həmçinin bu ibadəti öz müsəlman qardaş və bacılarımızla birgə, camaat şəklində qılmağı daima bizə müvəffəq etsin! Yazdığımız bu kitabçanı da xalis Allah üçün olunmuş əməllərdən və müsəlmanlar üçün fayda verən kitablardan etsin! Amin!

---

[113] Zeyl Tabaqat əl-Hənəbilə 2/ 365
[114] Təhzib ət-Təhzib 9/ 204
[115] Təhzib ət-Təhzib 1/ 173
[116] Siyər Əlam ən-Nubələ 5/ 62

## Mündəricat


Camaat namazı ........ 2
Namazın hökmü ........ 2
Namazın ibadətlər arasında yeri ........ 3
Camaat namazının şəriətdən olması ........ 4
Camaat namazının tarixi ........ 4
Camaat namazının qılındığı yer ........ 5
Camaat namazının fəziləti ........ 6
Camaat namazının faydası ........ 7
Camaat namazı və məscidin ədəbləri ........ 7
Camaat namazı kimlərə vacibdir ........ 8
Azan verildikdən sonra məsciddən çıxmağın hökmü ........ 8
Neçə nəfərlə qılınan namaz camaat namazı sayılır ........ 9
Camaat namazına yetişmək ........ 9
Vacib namazları camaatla qılmağın hökmü ........ 10
Camaatla qılınan namazlar ........ 11
Camaat namazının məsciddə ikinci dəfə qılınması ........ 20
Namazı qıldıqdan sonra camaat namazına qoşulmaq ........ 21
Namazda imam dayanmaq ........ 21
Fasiq imamın arxasında qılınan namazın hökmü ........ 23
Uşağın arxasında qılınan namazın hökmü ........ 23
Kor adamın arxasında qılınan namazın hökmü ........ 24
Qul olan şəxsin imam dayanmasının hökmü ........ 24
Quranı yaxşı oxumayanın arxasında qılınan namaz ........ 24
Qadının qadınlara imam dayanmasının hökmü ........ 24
Kişinin qadınlara imam dayanmasının hökmü ........ 25
Qadının kişiyə imam dayanmasının hökmü ........ 25
Təyəmmüm edənin dəstəmazlı olana imam dayanmasının hökmü ........ 25
Müsafirin səfərdə olmayana imam dayanmasının hökmü ........ 25
Səfərdə olmayanın müsafirə imam dayanmasının hökmü ........ 25
İmamın fərz, məmunun isə sünnə namazı qılmasının hökmü ........ 26
İmamın sünnə məmunun isə fərz namazı qılmağının hökmü ........ 26
Dəstəmazı olmayan imamın qıldırdığı namazın hökmü ........ 26
Nəcasətli halda imam dayanmağın hökmü ........ 26
Namazda olarkən nəcasətin olmasını bilən imam nə etməlidir ........ 27
Camaatın sevmədiyi imamın arxasında qılınan namazın hökmü ........ 27

İmamın namazı çox uzatmasının hökmü ........................................................ 28
Namazın vaxtı çıxdıqdan sonra azan və iqamə oxumağın hökmü ............... 28
Daimi imamı gözləməyin hökmü ..................................................................... 29
Camaat namazında imamın arxasında Quran oxumağın hökmü ................ 29
Məmun imamla qıldıqda dayandığı yer ......................................................... 31
İmam nə zaman camaata doğru çönməlidir .................................................... 32
Səflərin ən əfzəli .................................................................................................. 32
Namazda imama tabe olmağın növləri ........................................................... 33
Qadınların camaat namazına gəlməsi ............................................................. 35
Qadınların camaat namazını qılması .............................................................. 36
Üzr olduqda camaat namazına gəlməmək ...................................................... 36
Sələfin camaat namazına münasibəti ............................................................... 37

**Hörmətli müsəlman qardaş və bacılar bu kitaba dair təklif və iradlarınızı ramil.soltanov@gmail.com elektron ünvanına göndərə bilərsiniz.**